**Azərbaycan Respublikasının**
**Belçika Krallığındakı Səfirliyi**

| | |
|---|---|
| Haradan: | SBRS |
| Haraya: | MMXİ, MİHİ, MRTİ |
| Surəti: | SPRQ, SSOF |
| Çıxış nömrəsi: | SBRS/ 695 /15 |
| Tarix: | 10 / 11 /15 |
| Sənəd necə göndərilir: | Elektron poçt |
| Səfirliyin ......................N-li məktubuna istinad | |
| Səhifələrin sayı: | 1+ 1 |
| Əlavə olunur | |
| Məhdudluq qrifi: | Adi |
| Təciliiyi: | Təcili |
| Vacibliyi: | Adi |
| Əvvəlki müraciətlər: | |

XİN-in .................... N-li məktubuna cavab
..............................................tarixinə qədər cavab verilməlidir

Məruzə üçün: Nazirə,
Nazir müavini: M.Məmməd-Quliyevə

Məlumat verilməsi üçün: AR Milli Məclisinə

**Məsələyə dair:** *Erməni diaspor təşkilatları tərəfindən Avropa Parlamentində keçiriləcək tədbirə dair*

Səfir Fuad İsgəndərov

İcraçı: Anar Şükürov

Nəzərinizə çatdırırıq ki, Belçikada fəaliyyət göstərən Ədalət və Demokratiya üzrə Avropa ermənilərі Federasiyasının (EAFJD) təşəbbüsü ilə 17 noyabr 2015-ci il tarixində Avropa Parlamentində "Silahlı münaqişələrlə bağlı juranlistlərin şahid hesabatları: Dağlıq Qarabağ nümunəsi" adlı tədbir keçiriləcəkdir.

Avropa Parlamentində Avropa-Ermənistan qeyri-rəsmi Dostluq Qrupunun sədri, Kiprdən olan deputat Eleni Teaxarousun moderatorluq edəcəyi sözügedən tədbirdə Çexiyadan olan jurnalistlər Dana Mazalova, Anna Karapetyan və bolqar Çvetana Paskaleva çıxış edəcəkdir. Çıxış edənlər döyüşlər və atəşkəs dövrü ilə bağlı öz "şahid təəssüratları" haqqında məlumat verəcəkdir.

Tədbir zamanı aparılmış müzakirələr haqqında məlumat toplanılması, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çıxış edənlərin ermənipərəst, qərəzli fikirlərinə cavab verilməsi məqsədilə Azərbaycan diasporunun üzvləri, o cümlədən "eunews.az" xəbər portalının nümayəndələrinin sözügedən tədbirdə iştirakı tərəfimizdən təmin ediləcəkdir.

Eyni zamanda, tədbirin "Avropa Parlamentinin Azərbaycana qarşı növbəti təxribatı" kimi yerli mətbuatda işıqlandırılmasını məqsədəuyğun hesab edirik.

Nəzərdən keçirməyinizi və Nümayəndəliyin müvafiq qaydada təlimatlandırılmasını xahiş edirik.

9. 11. 2015